LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

İnsan hüquqlarının təşviqi və effektiv müdafiəsi sahəsində milli subyektlərin potensialının artırılması



İcra müddəti: 01.01.2017 - 31.12.2020

ŞT ölkələri:
Azerbaijan

Aİ-nin maliyyə yardımı: € 961 796

Ümumi büdcə: € 1 109 000

İcraçı təşkilat(lar):
UNITED NATIONS HIGH COMMISSIONER FOR HUMAN RIGHTS

Sosial media hesablarına keçidlər:
https://m.facebook.com/Resurs-Mərkəzi-Resource-Centre-276158269580799/?ref=bookmarks

Internet səhifəsi: www.ohchr.org

Layihənin təsviri:

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT IHAK tərəfindən həyata keçirilən bu layihənin ümumi məqsədi vətəndaş cəmiyyəti nümayəndələri və hüquqşünasların BMT-nın insan hüquqları sistemi çərçivəsində insan hüquqlarının təşviqi və müdafiəsindəki rolunu gücləndirməkdir. Layihə təlimlər vasitəsilə vətəndaş cəmiyyəti təşkilatlarnın (VCT-lər) və hüquqşünasların BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etməklə insan hüquqlarının monitorinqi, qiymətləndirilməsi və hesabatların hazırlanması sahəsində bilik və bacarıqlarını artırır və bu məqsədlə seçilmiş VCT nümayəndələri və hüquqşünaslara maliyyə və məsləhət dəstəyi göstərir. Tərcümə edilərək çap edilmiş təlim materialları və nəşrlər VCT-lər və hüquqşünasları insan hüquqları mövzusunda vacib məlumatla təmin edir. Layihə çərçivəsində yaradılmış Resurs Mərkəzi həssas qruplardan olan şəxslərə ödənişsiz hüquqi xidmətlər göstərir. Resurs Mərkəzi həmçinin VCT-lər və hüquqşünaslar üçün ödənişsiz məkan və vacib hüquqi vəsaitlər təmin etməklə ödənişsiz tədris mərkəzi kimi fəaliyyət göstərir.

Gözlənilən nəticələr:

- VCT nümayəndələri və hüquqşünaslardan ibarət ən az 150 şəxsin beynəlxalq insan hüquqları standartları sahəsindəki biliklərinin artırılması və bu sahədə potensialın gücləndirilməsi;
- BMT-nin Müqavilə Orqanları tərəfindən qəbul edilmiş ən son Yekun Müşahidələrə dair məlumatın dövlət dilində təmin edilməsi və VCT-lər və hüquqşünaslar arasında paylanması;
- VCT-lər və hüquqşünasların alternativ hesabatlarının hazırlanması, onların BMT-nin insan hüquqları mexanizmlərinə təqdim edilməsi sahəsində bacarıqlarının artırılması;
- VCT-lər və hüquqşünaslar tərəfindən BMT-nin insan hüquqları mexanizmlərinə təqdim etmək məqsədilə hazırlanan keyfiyyətli hesabatların sayının artması;
- 1000-dən çox hüquqi işdə həssas qruplardan olan şəxslərin ödənişsiz hüquqi xidmətlə təmin edilməsi;
- VCT-lər və hüquqşünasların tədbirlərini təşkil etmələri üçün ödənişsiz məkan və resurslarla təmin edilməsi.